# “Handicraft Baku” platformasının həmtəsisçisi: COP29 bizim üçün əla özünüifadə imkanıdır

2018-ci ildə iki təşəbbüskar xanım – Jalə Nəcəfova və Ayla Bağırlı həmin vaxt üçün yeni olan ideya ilə çıxış ediblər; onlar Bakıda ev xanımlarının əl işlərinin layiqincə təmsil olunacağı platforma yaradılması təklifini irəli sürüblər. On nəfərdən ibarət ilk yarmarkanı ancaq sırf dostları üçün təşkil ediblər. Bir uşağın özü ilə on beş dostunu şou göstərmək üçün bir araya toplaması, sonra daha iyirmi, onların da iyirmi beş nəfəri cəlb etməsi haqqında cizgi filmində olduğu kimi, həmin on dost özləri ilə on-on beş adam da gətirib. Beləliklə, platforma genişlənib və təqribən il yarımdan sonra 10 iştirakçı 60-a çatıb. Nəticədə böyük bir icma yaranıb və artıq 2019-cu ildə burada ustaların sayı 350 nəfər olub.

“Handicraft Baku” platformasının həmtəsisçisi Jalə Nəcəfovanın sözlərinə görə, bir yarmarka zamanı 1500 nəfər qeydiyyatdan keçib və təəssüf ki, onların hamısını əhatə etmək mümkün olmayıb. O, AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib: “Biz həmişə “Handicraft Baku”ya məhz Azərbaycanda istehsal olunan əl işlərini götürməyə çalışmışıq. Biz düşündük və yarmarkalar, festivallar, Bakı “Handicraft Baku” şourumu keçirməyə başladıq, əl işləri ilə bağlı saysız-hesabsız layihələr həyata keçirdik və onların hamısı yalnız Azərbaycanda oldu”.

“Handicraft Baku” diqqətlə seçilmiş dizayner geyimləri, aksesuarlar, zərgərlik və bəzək əşyaları brendidir, qadınlara və kişilərə hədiyyələr seçməyə kömək edir. İstənilən şəxs böyük seçimlər olan məkanı asanlıqla gəzə və gözəl, funksional, yüksək keyfiyyətli məhsul yaratmaqda yerli istehsalçılara dəstək olmaq fürsətindən istifadə edə bilər.

Jalə xanım əlavə edir: “2020-ci ilin fevral ayında biz sərgi salonu açmağa qərar verdik, çünki o vaxt ölkədə ABAD-dan başqa belə bir konsepsiya yox idi. Beləliklə, 2020-ci il fevralın 14-də onu açmaq qərarına gəldik. İlk salonumuzu açdıq və hər şey gözəl idi, lakin 14 gündən sonra COVID-19 pandemiyası səbəbindən karantin başladı. Şəhər bağlandı, amma biz fəaliyyətimizi davam etdirdik. Qətiyyən ruhdan düşmədik. Bütün komandamızla hər gün işləyirdik. Sonra 100 kvadratmetr ərazidə yerləşdik və altı aylıq karantində işimizi böyütdük. Bəxtimiz gətirdi: kirayə qiymətləri çox aşağı olanda gəlib bu məkanı tapdıq. Biz əl istehsalı məhsullarının çeşidini yaratmağa və genişləndirməyə başladıq”.

İndi “Handicraft Baku”da hər kəsin yaradıcılıq prosesində iştirak edə biləcəyi emalatxanalar da var. “Bizim unikal sərgi salonumuz var: adi insanlar gəlir və burada mövcud olan emalatxanalarda yaratmağa başlayırlar. Həmin əşyaların satışı da burada həyata keçirilir. Biz yarmarkalara başlayanda, sənətkarlarımızın vizit kartları yox idi, lakin onların çoxu inanılmaz məhsullar hazırlayırdı. Onlar işlərinə layiqincə qiymət verilməsi üçün onların fotoşəkillərini düzgün formada çəkə bilmədilər. Biz onlara bunu necə düzəltməyi, daha yaxşı etməyi öyrətdik. Çünki bizim əsas məqsədimiz yerli brendləri tanıtmaq və xüsusən də bu biznesə mümkün qədər çox gənci cəlb etməkdir”, - deyə Nəcəfova vurğulayır.

Agentliyin həmsöhbətinin sözlərinə görə, peşəsindən asılı olmayaraq, hər bir insan nəsə yarada, yaradıcılıqla məşğul ola bilər və sonradan bu fəaliyyət biznesə çevrilir: “Məsələn, orada Rəssamlıq Akademiyasını bitirənlərin heç də hamısı gələcəkdə rəssam olmur; bir çox hallarda, deyək ki, sabun hazırlamağı bilən bir mühasib qız yaradıcılıq studiyasına gələrək şah əsərlər yaratmağa başlayır. İstənilən formatda yaradıcılığa açığıq. Kembric Universitetinin tələbəsi Bakıda olarkən bizim studiyada işləyib”.

İstənilən şəraitdə yaradıcı qalmağı bilən “Handicraft Baku”nun təmsilçiləri, həm də dostluq etməyi və bir-birinə dəstək olmağı sevirlər.

Jalə xanım deyir: “Biz yerli sənətə tələbat yaratmışıq. Hazırda internet saytı açmışıq, ABŞ və Böyük Britaniyaya satışlar edirik. Həm də bütün bunları öz səylərimizlə həyata keçiririk. Bizim böyük qadın komandamız var - rəssamlar, əl işləri ustaları, sənətkarlar. Onlara öz bizneslərini inkişaf etdirməkdə dəstək oluruq. Bölgələrdə də qadınları dəstəkləyirik. Xeyriyyə işləri görürük. 2023-cü il fevralın 6-da Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə kömək etmək üçün genişmiqyaslı ianə aksiyası təşkil etdik. Biz də müharibə başlayanda Ukraynaya humanitar yardım göndərmişdik. “Handicraft Baku”nun hər bir yeni üzvünə xalça hədiyyə edirik. Bizim mehriban komandamız var. Xalçaları yumağa ehtiyac duyduğum, lakin yerin və suyun məhdud olduğu vaxtları xatırladım. Sonra biz 25 nəfər yığışıb hamısını bir yerdə yuduq. Başa düşdük ki, biz bir komanda kimi işləməliyik, hər şey bundan asılıdır”.

Həmtəsisçi qeyd edir ki, indi həm "Handicraft Baku"nun özü, həm də sənətkarlar üçün əsas məsələ təkcə Azərbaycanda deyil, xaricdə də genişlənmək, əməkdaşlıq yaratmaqdır: "Xaricdə - Rusiyada (Moskva), Gürcüstanda həmkarlarımızla görüşürük, Özbəkistan və digər ölkələrlə ünsiyyət qurur, təcrübə mübadiləsi aparırıq. Başa düşürük ki, Azərbaycan hazırda beynəlxalq səviyyədə sürətlə inkişaf edir. Qeyd edək ki, bunda beynəlxalq festivalların, yarmarkaların və digər tədbirlərin keçirilməsinin böyük rolu olub. Xaricdə hər kəs sevinir və yeni belə hadisələri səbirsizliklə gözləyir. Bu, həm də sektorumuz üçün əla fürsətdir; çoxlu sayda təklif və layihələrimiz var, lakin kiçik bizneslər üçün təbii ki, təkbaşına öhdəsindən gələ bilməyəcəyi problemlər var. Buna görə də investorlar axtarırıq və dövlət dəstəyinə ümid edirik. Öz işimizi təqdim etmək və bu il noyabrın 11-dən 22-dək Azərbaycanda keçiriləcək COP29 (BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - red.) kimi irimiqyaslı tədbirin bir hissəsi olmaq istərdik.

J.Nəcəfova söhbətin sonunda vurğulayıb: "COP29 bizim üçün inanılmaz dərəcədə əla özünüifadə imkanıdır, qlobal dünya ilə, dünyanın hər yerindən maraqlı insanlarla əlaqələr və əməkdaşlıq qurmaq şansıdır. Bu cür tədbirlərdə dövlət və hökumət başçıları ilə yanaşı, tamamilə fərqli sahələrdən - mədəniyyət və modadan tutmuş qlobal biznes strukturlarına, siyasi dairələrə qədər sferalardan insanlar iştirak edirlər. Həm də kiçik bizneslər üçün yaxşı bir platforma yaranır. Hesab edirəm ki, COP29 və bu tədbir çərçivəsində təmaslar ölkəmizdə biznesin inkişafına müsbət təsir göstərəcək".

**Pərvanə Qafarova**

**AZƏRTAC**
**2024, 7 sentyabr**